## XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

## GÖYÇAY ŞƏHƏRİNDƏ ƏLİ KƏRİMİN ABİDƏSİ



Azərbaycan poeziyasının "vaxtsız açan çiçəyi" adlandırılan görkəmli şair Əli Kərimə ucaldılan abidə onun doğulduğu və çox sevdiyi Göyçay şəhərində yerləşir.

Heykəl 2014-cü ildə Göyçay şəhərinin mərkəzində, şairin adını daşıyan Əli Kərim adına parkda ucaldılıb. Bu ərazi həm yerli sakinlərin istirahət yeridir, həm də hər il şairin ad günü (18 mart) və anım günlərində ədəbiyyatsevərlərin toplaşdığı məkandır. Əli Kərimin heykəli parkın mərkəzinə gətirilərək ətrafına mərmər döşənib. Parkın ərazisinə tamet plitələr döşənib, su xətti çəkilib, yeni işıqlandırma sistemi və oturacaqlar quraşdırılıb, gül kolları əkilib, yaşıllıq sahəsi salınıb.

## XOCALI RAYONU ƏLİ KƏRİM ADINA TAM ORTA MƏKTƏB




Məktəb Başkənd kəndində fəaliyyətə başlamışdır və tarixə XX əsrin əvvəllərindən ibtidai məktəb kimi düşüb, 1988-ci ildən tam orta məktəb statusuna keçmişdir.

Məktəbə görkəmli Azərbaycan şairi Əli Kərimin adı 1991-ci ildə verilmişdir. Bu ad şairin anadan olmasına, yaradıcılığına və Azərbaycan ədəbiyyatına verdiyi töhfəyə hörmət əlaməti olaraq seçilmişdir.

## ƏLİ KƏRİM ADINA SUMQAYIT ŞƏHƏR POEZİYA EVİ




1990-cı ildə fəaliyyətə başlayan və Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyindəki klublar sırasında olan Əli Kərim adına Sumqayıt Şəhər Poeziya Klubu öz fəaliyyətini bu gün də inamla davam etdirir. Klub 1992-ci ildən görkəmli Azərbaycan şairi Əli Kərimin adını daşıyır. Poeziya klubu öz işlərini klubun fəaliyyət proqramına uyğun olaraq iki istiqamətdə - şəhərdə ədəbiyyatın təbliği və şəhər ədəbi ictimaiy yətinin problemlərinin həlli istiqamətlərində qurmuşdur.

## ƏLİ KƏRİM ADINA KÜÇƏ
## BAKIXANOV QƏSƏBƏSİ




